# VƏTƏN SİZƏ OĞUL DEDİ

*__Xankəndi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub__*



***Ailənin tək oğul övladı olan Hüseynli Anar Saday oğlu 13.08.1994-cü ildə Şəmkir rayonu Təzəkənd kəndində anadan olub. Atası ilə anası ayrıldığından anası və bacısı ilə birlikdə yaşayan Anar Vətən müharibəsi başlanan zaman səfərbərlik xidməti tərəfindən müharibəyə yollanıb. Anar 08.11.2020-ci il tarixində Xankəndi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.***

*__Qubadlı istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub__*



***Əliyev Rövşən İsrafil oğlu 03.02.1999-cu ildə Şəmkir rayonu Düyərli kəndində anadan olub. O, Vətən müharibəsində igidlik və mərdlik göstərərək Qubadlı istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.***

*__Daha bir hərbçimizin şəhid xəbəri gəldi__*



***Vətən müharibəsinin daha bir hərbçisinin 165 gün sonra nəşi müəyyən edilib.***

***Bildirilib ki, sentyabrın 27-si başlayan II Qarabağ müharibəsinin qəhrəmanı, leytenant Abdullayev İntiqam Allahverdi oğlunun şəhidlik zirvəsinə ucaldığı məlum olub.***

***Qeyd edək ki, Abdullayev İntiqam 1998-ci ildə Ordubadın Düylün kəndində doğulub. O, Murovdağ istiqamətində gedən döyüşlərdə şəhid olub.***

*__Şuşa istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub__*



***İsmayılov Elşən İsə oğlu 25.03.1997-ci ildə Şəmkir rayonu Seyfəli kəndində anadan olub. Könüllü olaraq Vətən müharibəsinə qatılan Elşən igidlik və mərdlik göstərərək Şuşa istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.***

*__Xankəndi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub__*



***Ailənin tək oğul övladı olan Əlili Orxan Elşad oğlu 20.08.2000-ci ildə Şəmkir rayonu Qapanlı kəndində anadan olub. O, Vətən müharibəsində igidlik və mərdlik göstərərək Xankəndi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.***

*__Xocavənd istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub__*



***Əsgər Əliyev Məhəmməd Yaqub oğlu 28.05.2001-ci ildə Şəmkir rayonu Sabirkənd kəndində anadan olub.***

***O, Vətən müharibəsində igidlik və mərdlik göstərərək 30.10.2020-ci ildə Xocavənd istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.***

*__Suqovuşan istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub__*



***Əsgər Orucov İsə Razim oğlu 20.06.2001-ci ildə Şəmkir rayonu Seyfəli kəndində anadan olub. O, Vətən müharibəsində igidlik və mərdlik göstərərək 27.10.2020-ci ildə Suqovuşan istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.***

*__Şuşa istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub__*



***Hüseynov Rafiz Afiq oğlu 10.10.2000-ci ildə Gədəbəy rayonu Şahdağ kəndində anadan olub.***

***O, Vətən müharibəsində igidlik və mərdlik göstərərək 27.10.2020-ci ildə Şuşa istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.***